# Neft strategiyasının zəfəri: BTC-nin tarixi və əhəmiyyəti

**XXI əsrin geosiyasi tarixinin mühüm hadisələrindən biri kimi qiymətləndirilən, Xəzər dənizini Aralıq dənizi ilə polad körpü vasitəsilə birləşdirən Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəməri sisteminin tam şəkildə istismara verilməsi 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan dəniz terminalında keçirilən təntənəli mərasimlə rəsmiləşdirildi. Bu hadisə Azərbaycanın müstəqillik illərində həyata keçirdiyi, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətlə davam etdirdiyi yeni neft strategiyasının parlaq zəfəri, iqtisadi və siyasi müstəqilliyinin möhkəmləndirilməsində fundamental rol oynayan tarixi qələbə idi. "Üç dəniz əfsanəsi" adlandırılan bu layihə regionun enerji xəritəsini kökündən dəyişərək, Azərbaycanı beynəlxalq enerji təhlükəsizliyi sisteminin etibarlı iştirakçısına çevirdi.**

Layihənin reallaşdırılmasına gedən yol uzunmüddətli prosesləri əhatə edirdi. XX əsrin sonlarında müstəqilliyini yenidən bərpa etmiş Azərbaycan zəngin karbohidrogen ehtiyatlarına malik olsa da, həmin ehtiyatların dünya bazarlarına çıxarılması üçün etibarlı, şaxələndirilmiş və geosiyasi risklərdən sığortalanmış ixrac marşrutları mövcud deyildi. Şimal marşrutu (Bakı-Novorossiysk) həm məhdud ötürücülük qabiliyyəti, həm də müxtəlif siyasi amillərdən asılılığı səbəbindən Azərbaycanın strateji maraqlarına tam cavab vermirdi. Bu şəraitdə Xəzərin Azərbaycan sektorundakı zəngin yataqlardan, xüsusilə 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" çərçivəsində işlənilməsi nəzərdə tutulan "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan hasil olunacaq böyük həcmli neftin nəqli üçün alternativ dəhlizin yaradılması zərurətə çevrilmişdi. Bu tarixi zərurəti dərindən analiz edən Ümummilli lider Heydər Əliyev böyük siyasi uzaqgörənlik və qətiyyət nümayiş etdirərək Azərbaycan neftini Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan limanına nəql edəcək boru kəməri ideyasını irəli sürdü və ideyanın gerçəkləşməsi üçün çoxşaxəli diplomatik fəaliyyətə başladı.

BTC layihəsinin reallaşacağına daxili və xarici dairələr şübhə ilə yanaşır, onun iqtisadi cəhətdən səmərəsiz, texniki baxımdan isə həddən artıq çətin olduğunu iddia edirdilər. Lakin Azərbaycan rəhbərliyinin prinsipial mövqeyi, Türkiyə və Gürcüstanın strateji tərəfdaşlığı, eləcə də ABŞ və Böyük Britaniya kimi beynəlxalq liderlərin siyasi dəstəyi bu maneələrin dəf edilməsində həlledici rol oynadı. Gərgin danışıqlar nəticəsində layihənin hüquqi-siyasi bazasının yaradılması istiqamətində mühüm addımlar atıldı. 1998-ci il aprelin 26-da Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin Trabzon şəhərində keçirilən görüşündə layihənin reallaşdırılmasına dair qərar qətiləşdirildi. Prosesin davamı olaraq, həmin il oktyabrın 29-da Ankarada Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentləri, habelə ABŞ-ın energetika nazirinin iştirakı ilə BTC layihəsini dəstəkləyən Ankara Bəyannaməsi imzalandı. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbulda keçirilən Zirvə toplantısında layihə hüquqi cəhətdən təsbit olundu. Sammit çərçivəsində Azərbaycan Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Türkiyə Prezidenti Süleyman Dəmirəl tərəfindən "Xam Neftin Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən nəql edilməsi haqqında" hökumətlərarası Saziş imzalandı. Sənəd layihənin həyata keçirilməsi üçün hüquqi zəmin yaratdı. Eyni zamanda, Mərkəzi Asiya neftinin, xüsusilə Qazaxıstan və Türkmənistan karbohidrogenlərinin gələcəkdə bu kəmərə cəlb edilməsi məqsədilə beş dövlət arasında İstanbul Bəyannaməsi də imzalandı.



Hüquqi bazanın formalaşdırılmasından sonra layihənin praktiki icra mərhələsinə keçildi. Bu məqsədlə, 2002-ci ilin avqust ayında layihənin tikintisi və gələcək istismarını həyata keçirmək üçün beynəlxalq konsorsium olan Bakı-Tbilisi-Ceyhan Boru Kəməri Şirkəti (BTC Co.) təsis edildi. Şirkətin səhmdarları qismində dünyanın aparıcı enerji nəhəngləri bp (əməliyyatçı statusunda, 30.1 faiz payla), SOCAR (AzBTC törəmə şirkəti vasitəsilə, 25 faiz payla), Chevron (daha sonra payını MOL-a satıb), Statoil (hazırda Equinor), TPAO, Eni, Total, Itochu, Inpex, ConocoPhillips və Hess kimi şirkətlər təmsil olundu. Layihənin ümumi dəyəri təxminən 2.95 milyard ABŞ dolları təşkil edirdi və maliyyələşdirilməsi 30 faiz səhmdarların kapitalı, 70 faiz isə beynəlxalq maliyyə institutlarından, o cümlədən Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Beynəlxalq Maliyyə Korporasiyası (IFC), ixrac kredit agentlikləri və bir sıra kommersiya banklarından cəlb olunan kredit vəsaitləri hesabına həyata keçirildi. Azərbaycan dövlətinin layihədəki iştirak payının maliyyələşdirilməsi isə birbaşa Ümummilli lider Heydər Əliyevin 1999-cu ildə təsis etdiyi Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) tərəfindən yerinə yetirildi. Bu, Fondun həyata keçirdiyi ilk böyük strateji investisiya layihələrindən olmaqla, neft gəlirlərinin ölkənin uzunmüddətli inkişafına və gələcək nəsillərin rifahına yönəldilməsi siyasətinin fundamental əsasını qoydu.

Bütün hazırlıq işləri tamamlandıqdan sonra 2002-ci il sentyabrın 18-də Bakı yaxınlığındakı Səngəçal terminalında üç ölkənin - Azərbaycan, Türkiyə və Gürcüstanın dövlət başçıları Heydər Əliyev, Əhməd Necdət Sezər və Eduard Şevardnadzenin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməli qoyuldu və bununla da XXI əsrin ən böyük mühəndislik layihələrindən birinin tikintisinə start verildi. Kəmərin inşasına 2003-cü ilin aprelində başlanıldı. Tikinti prosesi beynəlxalq standartların yüksək tələblərinə, o cümlədən ekoloji və texniki təhlükəsizlik normalarına tam riayət olunmaqla həyata keçirildi. Kəmər mürəkkəb coğrafi relyefə malik ərazilərdən, o cümlədən 1500-dən artıq çay və 13 seysmik qırılma xətti ilə kəsişərək, bəzi yerlərdə dəniz səviyyəsindən 2800 metrə qədər yüksəkliklərə qalxırdı. İnşaat bir neçə mərhələdə aparıldı. 2005-ci ilin may ayında kəmərin Azərbaycan hissəsi, həmin ilin oktyabrında isə Gürcüstan hissəsi istifadəyə verildi. Kəmərin neftlə doldurulmasına 2005-ci il mayın 10-da başlanıldı və 2006-cı il mayın 28-də Azərbaycanın AÇG yatağından hasil olunan ilk neft Ceyhan terminalına çatdı. Qısa müddət sonra, iyunun 4-də Xəzər nefti ilə yüklənmiş ilk tanker Ceyhan limanından dünya bazarlarına doğru yola çıxdı.

2006-cı il iyulun 13-də Ceyhan terminalında keçirilən rəsmi açılış mərasimi layihənin tam başa çatması və bütöv sistem kimi fəaliyyətə başlaması elan edildi. Mərasimdə Azərbaycan, Türkiyə, Gürcüstan Prezidentləri, həmçinin çoxsaylı ölkələrin yüksək səviyyəli nümayəndə heyətləri və səhmdar şirkətlərin rəhbərləri iştirak edirdilər. Mərasim həm də layihənin ideya müəllifi və memarı olan Heydər Əliyevin xatirəsinə ehtiram rəmzi idi və buna görə də boru kəmərinə və Ceyhandakı dəniz terminalına Heydər Əliyevin adı verildi.

Texniki xüsusiyyətləri baxımından Bakı-Tbilisi-Ceyhan kəməri dünya miqyasında unikal qurğudur. Kəmərin ümumi uzunluğu 1768 kilometrdir. Bu məsafənin 443 kilometri Azərbaycan, 249 kilometri Gürcüstan və 1076 kilometri isə Türkiyə ərazisindən keçir. Boru kəmərinin diametri Azərbaycan və Türkiyə ərazilərində əsasən 42 düym (təxminən 1070 mm), Gürcüstanın dağlıq ərazilərində isə 46 düym (təxminən 1170 mm) təşkil edir. Kəmərin Türkiyə ərazisində Ceyhan terminalına yaxınlaşan son hissəsində diametr 34 düymə qədər azalır. Layihənin gündəlik ötürücülük gücü 1,2 milyon barrelə (ildə təxminən 60 milyon ton) çatdırılmışdır. Kəmər boyunca neft axınını təmin etmək üçün 8 ədəd nasos stansiyası (dördü Azərbaycanda, ikisi Gürcüstanda, ikisi Türkiyədə), iki aralıq təzyiqazaltma stansiyası və 50-dən çox klapan (siyirtmə) stansiyası fəaliyyət göstərir. Neftin Səngəçal terminalından Ceyhana çatması təxminən 10 gün çəkir. Kəmərin son nöqtəsi olan Ceyhan dəniz terminalı isə hər biri 1 milyon barrel tutuma malik 7 xam neft saxlanc çənindən, neftin eyni anda iki nəhəng tankerə yüklənməsini təmin edən körpüdən və müasir idarəetmə infrastrukturundan ibarətdir.

Bakı-Tbilisi-Ceyhan kəmərinin istismara verilməsinin iqtisadi təsirləri əvəzolunmazdır. İlk növbədə, kəmər Azərbaycanın əsas gəlir mənbəyi olan "Azəri-Çıraq-Günəşli" yataqlarından hasil edilən neftin və "Şahdəniz" yatağından çıxarılan kondensatın dünya bazarlarına fasiləsiz və birbaşa çıxışını təmin etdi. Bu, Azərbaycan iqtisadiyyatına milyardlarla dollar həcmində valyuta daxil olmasına imkan yaratdı, ölkənin ümumi daxili məhsulunun dəfələrlə artmasına, genişmiqyaslı infrastruktur layihələrinin reallaşdırılmasına, güclü ordunun qurulmasına, sosial proqramların həyata keçirilməsinə və nəticədə əhalinin rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb oldu. BTC-dən əldə olunan gəlirlərin Dövlət Neft Fondunda şəffaf şəkildə toplanması və idarə olunması, neft sərvətinin qeyri-neft sektorunun inkişafına və gələcək nəsillərin ehtiyaclarına yönəldilməsinə imkan verən davamlı inkişaf modelinin əsasını qoydu. Layihə tranzit ölkələr olan Gürcüstan və Türkiyə üçün də mühüm iqtisadi faydalar gətirdi. Həmin ölkələr tranzit haqlarından sabit gəlir əldə etməklə yanaşı, yeni iş yerlərinin yaradılması, yerli podratçıların layihəyə cəlb olunması və regional iqtisadi fəallığın artması kimi üstünlüklər qazandılar. Kəmər üç ölkə arasında iqtisadi və siyasi əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltdi və Cənubi Qafqazda yeni əməkdaşlıq formatının təməlini qoydu.

Geosiyasi arenada BTC-nin rolu onun iqtisadi əhəmiyyətindən heç də az deyil. Kəmər Xəzər hövzəsinin enerji resurslarının ənənəvi marşrutlardan yan keçərək yeni dəhliz vasitəsilə dünya bazarlarına, xüsusilə Avropa bazarına çıxarılmasını təmin etdi. Bu, Avropanın enerji təhlükəsizliyi arxitekturasında ciddi dəyişiklik yaratdı. Avropa ölkələri üçün enerji təchizatının şaxələndirilməsi, enerji mənbələrinin və marşrutlarının bir neçə mərkəzdən asılılığının azaldılması istiqamətində atılmış ən mühüm addımlardan oldu. Beləliklə, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirdi. Bundan əlavə, BTC Mərkəzi Asiyanın zəngin karbohidrogen ehtiyatlarına malik ölkələri, xüsusilə Qazaxıstan və Türkmənistan üçün də Qərbə açılan yeni ixrac pəncərəsi yaratdı.

2006-cı il iyulun 13-də tam gücü ilə işə düşən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri siyasi iradənin, strateji düşüncənin, milli birliyin və uğurlu beynəlxalq əməkdaşlığın təcəssümüdür. "Əsrin müqaviləsi"nin məntiqi davamı olan BTC Azərbaycanın iqtisadi qüdrətini artırmaqla yanaşı, beynəlxalq aləmdəki mövqelərini köklü şəkildə dəyişdirdi, regional lider statusunu möhkəmləndirdi və ölkənin suverenliyinin iqtisadi təminatında həlledici rol oynadı. Bu gün də fasiləsiz və təhlükəsiz şəkildə fəaliyyət göstərən BTC kəməri vasitəsilə neftin dünya bazarlarına nəql edilməsi, layihənin dayanıqlılığını və Azərbaycanın dünya enerji bazarındakı əvəzsiz yerini nümayiş etdirir.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**

Respublika .- 2025.- 13 iyul (№ 142).-